**UOT 791.43.**
**DOI: 10.52094/1524122.43.2023.20**

**Aysel Ağaşirin qızı Rüstəmova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**E-mail: aysel_rustemliar@mail.ru**

# SƏNƏDLİ EKRAN ƏSƏRİNDƏ DRAMATURJİ XƏTT VƏ REJİSSOR TƏFSİRİ

**Xülasə:** Məqalədə sənədli film dramaturgiyasının əsas prinsipləri, hadisələrin inkişaf xəttində süjetin rolu, personajın daxili aləmini sərgiləyən atributlardan bəhs edilir, dramaturgiyanın əsas komponentləri – ideya, mövzu, süjet, kompozisiya haqqında müfəssəl şərhlər yer alır. Eyni zamanda sənədli filmin dramaturju model quruluşundan, müddəalarından, növlərindən söz açılmış, sənədli filmlərdə rejissor texnologiyasının vacib məqamları göstərilmişdir. Sənədli kinonun inkişafında sinxronun əhəmiyyətindən, onun növlərindən ətraflı şəkildə izahat verilmiş, sənədli filmdə əsas qəhrəmana göstərilən tələblər, onun xarakterik xüsusiyyətləri açıqlanmışdır.

**Açar sözlər:** Dramaturgiya, rejissor texnologiyası, sənədli film, sinxronizasiya, personaj, qəhrəman

Dram yunan sözü olub "hərəkət" anlamını verir. O, hər hansı bir əsəərin süjetinin inkişaf xəttində baş verən hadisələri göstərməklə bərabər, personajların daxili aləminin təfsir edilməsinə şərait yaradır. Dramaturgiyanın əsas prinsipləri müxtəlif olsa da, mövzusu həmişə sabitdir, müvafiq cəmiyyətdə olmuş həqiqətə uyğun, müasir hadisələri nəql edərək varlığın tam gerçək atributlarının əsas tərəflərini nümayiş edir və əlaqə qurur. Dramaturgiyanın bütün tərkib hissələri ümumi bir müstəsna hadisə sayılır, mövzuya, ideyaya, süjetə, görünüşə və səhnəyə istinad edir.

Film dinamik görüntüdür və kinematik yaradıcılıq sahəsi kimi ekran əsərinin estetikasını təşkil edir. Vizual təsvirin dramaturgiyasının görüntüsünə əsaslanan əsas surət dramaturq tərəfindən meydana çıxarılır. Dramaturq, mövzunun keyfiyyətini araşdırır, insanların davranma tərzini hisslərlə əlaqələndirir və kənar varlıqların xüsusi əlamətlərini jestdə, nitqdə qavrayır. Dramaturgiya barədə aşağıdakı müddəaları nümunə göstərmək olar:

1) müəllifin rolunu izah etmək;
2) rejissor təfsirinin seyrçi marağına təsiri; 3) kompozisiya prosesinin yaradılması.

Müəllif, dramaturgiyada fikirlərini yönəldə biləcəyi istiqamətdə, obyektiv sahədə göstərir və onu lazımi cavabı almaq üçün özünəməxsus sualları ortaya çıxarır. Dramaturgiya filmin məzmununun nisbi mövqeyini seçir, müəllifin izləyicilərin təfəkkürünün, diqqətinin fəal idarə olunmasına şərait yaradır. Müəllif xammalını elə bir formada ərsəyə gətirir ki, filmin mövzusunun necə olması audiovizual təsvirin süjet xəttində aydınlaşır, hadisənin səbəbi açıqlanır və materialın əsas ideyası tamaşaçıların informasiya yaddaşına köçürülür.

Ssenaridə dramaturji materialın maraqlı hekayə xətti əsas götürülür. Onun əsas vəzifəsi tamaşaçıların diqqətini təqdim etdiyi istiqamətdə saxlamaq, ümumi maraq oyatmaqla tamaşaçı kütləsininə hakim olmaqdır.

Sənədli filmin dramaturji quruluşu:

1. Sənədli filmin dərk edilməsinə vasitəçilik göstərən hərəkətli, səsli görüntü.
2. Filmin süjet xəttini yaradan kompozisiya.
3. Sənədli əsərdə tam obrazı əmələ gətirən süjet.
4. Süjetin məzmunu, ideyanın çərçivəsi olan obraz.
5. Obrazın məzmununa qatılan ideya.

Mövzu "əsas olan" anlamını bildirir, struktur dövrünü təsis edir və məzmunun nədən ibarət oılacağından xəbər verir. Kinoşünas Aydın Dadaşov yazır: *"Ssenarinin mövzu həlli bədii təsvir obyektinin müəyyən tarixi zaman və məkan çərçivəsində üzləşdiyi həyat hadisələrinin toplusudur"* [1, s.4]. Mövzunu inkişaf prosesi kimi idarəedici konflikt adlandırmaq olar. O, filmin önəmini müəyyənləşdirir və tələb olunan qərarları ümumiləşdirir. Həyat hadisələrin dairəsini, sənətkarın filmdə yaratdığı prosesin materialını seçir və izləyicinin həyəcan oyadan dünyası arasında birbaşa əlaqə qurur. Beləliklə, mövzu:

1) həyatın mühüm xamallıdır;
2) görüntünün istənilən bir obyektidir;3) estetik funksiyaya sahibdir.

Mövzu, sənədli ekran əsərində müəllifin yaratdığı əsas problemdir. Filmin əsas ideyasını imkan olduğu qədər dərinləşdirməyə kömək edir. Sənədli kino inkişaf prosesində çağdaş informasiya texnologiyası gündəliyi ilə vasitələrin sintezidir.

Sənədli filmin dramaturgiyasında inkişaf xətti ideyaya köklənir. İdeya yunan sözü olaraq "fikir", "anlayış" deməkdir. O, subyektivdir, müəllif yanaşmasıdır, tamaşaçılara, ictimai hadisələrə ruhlandırmaq istəyi, onları nəyə istiqamətləndirmək

inancı haqqında dedikləridir. Deməli, ideya dramaturqun yaradıcı dünyasının bir növ məhsuludur, həmin prosesdə təyin edilmiş süjetdir.

Sənədli ekranda dramaturgiya bu ardıcıllıqda qurulur:

1) İdeya filmin görüntüsünün əsas dizaynıdır, seyrçinin qəbul edəcəyi düşüncəni qavrayır. 2) İdeya ancaq filmin finalında açılır və müəllifin istəyindən asılı olaraq rejissorun tapdığı "nüans" əsasında seyrçilərə ötürülür. Dramaturq Əli Əmirli yazır: *"İdeya heç vaxt açıq olmur və heç vaxt da statik deyil. O, inkişaf etmirsə dərhal məhv olur və yaxud bayağı, ziyanlı bir şeyə çevrilir* [2, s.21]. Beləliklə, sənətkarın həyata münasibətinin rolunda ideya mühüm xarakter daşıyır.

Sənədli filmin dramaturgiyasının inkişafında vacib şərt süjetin vizual təsvirlə əlaqədar olmasıdır. Süjet hərəkətin, münasibətlərin inkişafı deməkdir. O, sənətkar hisslərinin əldə etdiyi bir həqiqəti toplayır. Bu yöndən yanaşsaq, süjet görüntünün tamlığını konkretləşdirir və hekayə xətləri ilə təmas qurur, filmin özəyini təşkil edən hadisələr toplusu kateqoriyasını meydana çıxarır. Tədqiqatçı Gülşən Qafarovanın fikirlərinə əsasən: *"Süjetin əsas funksiyası ssenariyə məna və məzmun verməsindədir. Süjet də ssenari kimi üç mərhələli struktura malik olur; onun da aydın başlanğıcı, dinamik inkişafı, kulminasiyası və finalı olmalıdır"* [3, s.86]. Bir sözlə, sənədli filmdə süjetə iki aspektdən yanaşmaq olar:

1. İzləyicilərin fikrini vizual təsvirə yönləndirmək.
2. Bu fikiri saxlamaqla tamaşaçını ümidsiz etməyən əzəmətli sonluq təqdim etmək.

Beləliklə, süjet sənədli filmin dramaturgiyasında personajın hərəkət inkişafında bütün prosesi və özünü subyektiv aksiologiya səviyyəsində göstərir.

Dramaturq həyat hadisələrinin inkişafı arasındakı əlaqəni bədii yaradıcılığın əsas hissəsi olan kompozisiyada tamamlayır. O, filmin qarşılıqlı təması təzahüründə meydana çıxır, bir tərəfdən kinonun inkişaf prosesinin yekunu, başqa tərəfdən konsepsiyasına qədər xülasəsini çatdırmağa çalışır. Filmdə kompozisiya ayrılmış hissələri birləşdirir və tam formada bir ekran əsəri ərsəyə gətirir. Kompozisiya həm filmin daxili konstruksiyası, həm də izləyici ilə vasitəçilik təşkil edir. Kompozisiya epizodların mövzu dairəsidir. Filmin tematik inkişaf metodikasını dramaturqun tapşırığı ilə həll edir. Kompozisiyada filmin üç həqiqət faktoru görünür: gerçəklik, müəllif yanaşması və seyrçilərin qavrayışı.

Sənədli filmlərin dramatik model quruluşu bu növlərə görə əsaslanır:

1. Analitik film – məlumat hər hansı bir subyekt tərəfindən hadisələrin fərdi dərk olunması vasitəsilə nümayiş edilir. Qaydaya əsasən burada müəllif fəaliyyət göstərir.

2. Memuar filmi – müəllifin rolunun olmaması və filmin qəhrəmanına subyektiv dəyər verilməsidir. Bu filmdə obrazın tarixi dövr kontekstində öz həyat hekayəsinin təhlilini göstərməsi mühüm sayılır. Belə filmlər qəhrəmanın xatirələrinə əsaslanan "portret" filmləri üçün münasibdir. Memuar filmi fəal obrazın olması, qəhrəman tipi ilə səciyyələnir.

3. Nepotik film – yaxın qohumun xatirəsi, personajın tərcümeyi-halına subyektiv dəyər verməyi təklif edən filmdir. Nepotizm sözü latınca "nepotis" – nəvə, nəsil anlamını bildirir. Burada məlumat funksiyası müəllif, obrazın özü deyil, onun qohumu, yaxın adamları nəzərdə tutulur.

4. Retrospektiv film – filmdə olmuş faktlar, dövrün fotoları və xronikası əlaqəsi ilə keçmişin təsvirləri ilə müəyyənləşir. "Retrospektiv" latınca "retrospectare" – "geriyə baxış" keçmişə baxış və keçmişdə baş verən hadisələrə nəzər salmaq mənasını ifadə edir. Retrospektiv sənədli filmin vizual həlli rəsmlərdən qaynaqlanır və yalnız hekayənin birbaşa qəhrəmanlarının portretlərini deyil, həmçinin münasib dövrü canlandıran fotoşəkillərin istifadəsini xarakterizə edir.

Sənədli filmlərin istehsalında şərait prosesində gedən dəyişikliklər yaradıcılığa mənfi təsir göstərir. Sənədli filmlər bədii filmlərdən özünəməxsus dərəcədə fərqlənir. Burada xarakterik olan spesifik rejissor texnikası formalaşır. Rejissorun baxışı, gələcək filmin mövzusunu, ideyasını asanlaşdırmağı bacarır. Rejissor fransız sözü olub "regisseur" – "idarə etmək" anlamını izah edir. Rejissor dramaturqdur, yalnız başlanğıc mərhələdə deyil, filmin bütün gedişatı boyunca hekayə düzəldir, dramaturji modelləri rejissorluq texnologiyası kontekstində mənimsəyir.

Kino, rejissora görə özünün fikirləri, hiss və istəklərini bildirən ifadə üsuludur. Yalnız ona aid olan bacarığı ilə kağız üstündə yazılmış sözlər izləyicinin ekrandan ala biləcəyi vizual və səsli materiala dəyişə bilir. Sənədli filmin yaradıcı xammal prosesi məhz rejissordan tələb olunur. Doğrudan da, rejissor öz həyat baxışı, hissləri, mədəniyyəti ilə sənədli insanı kəşf, müşahidə edən sənətkardır.

Sənədli filmin əsas vəzifəsi həqiqəti əldə etmək deyil, yaşadığımız reallığı təmsil etməkdir. Tədqiqatçı Könül Yusifova bu cür fikir irəli sürür: *"Sənədli filmin mühüm xüsusiyyəti onunla bağlıdır ki, onun kadrları həqiqətin bilavasitə təsbit edilməsinin nəticəsidir. O, real həyat hadisəsini bizə yaxınlaşdırır və qiymətləndirmək üçün təklif edilən həqiqətin özünə bənzəyir"* [4, s.7].

Sənədli filmdə rejissor təsnifi sinxronda öz həllini tapır. Sinxronlaşma sənədli kinonun ən mühüm atributlarından biridir. "Sinxron" sözü televiziyada yaranmışdır, əsasən sənədli filmdə müsahibə kimi nəzərdə tutulur. Sənədli filmin

rejissoru, qəhrəmanı ilə bir gündən artıq zaman keçirir, onun daxili aləminə təsir edir.

Sinxronlar funksiyalarına və məkanın təşkili metoduna görə fərqlənə bilər.

Bu sinxronlar aşağıdakılardan ibarətdir:

1. Birbaşa sinxron – o, canlı olaraq kameraya, başqa sözlə, tamaşaçıya baxıb danışır. Bu, televiziyada ən geniş yayılmış sinxron növü sayılır.
2. Sinxronlaşdırılmış dialoq – qəhrəman müxbirlə söhbət edir, müəllif isə kadr arxasında qalır.
3. Dinamik sinxron – müəllif birbaşa qəhrəmanla ünsiyyət qurur.
4. İstehsal sinxronu – qəhrəman fərqli sənədli toplulardan əldə etdiyi məlumatları birləşdirir, əvvəldən yazılan mətni tələffüz edir, sənədli obrazı aktyor canlandırır.
5. Ekrandan kənar sinxron – daxili monoloqun təkrarı, qəhrəmanın danışdıqları hər zaman obrazla uyğunlaşmır.

Qəhrəman, dramaturgiyada həmişə müəllifə güc, qüvvə və ruh bəxş edir. Onun xüsusiyyətləri iki növ əsasında seçilir:

1) Qorxmazlığı, çalışqanlığı, uğurları ilə seçilir və diqqət çəkir; 2) Dövrün xarakterik əlamətlərini özündə əks etdirir.

Qəhrəman sənədli filmdə əsas personajdır. Onun yaşayışının əsas istiqaməti tam bir varlıq aləmidir. Sənədli ekran əsərində qəhrəmanın həyatı, karyerası, onun istəkləri daha aydın və yığcam olur. Həmçinin vətənpərvərlik hissləri, bacarıqları, əxlaqi keyfiyyətləri tamaşaçı kütləsinə təqdim olunur. Beləliklə, rejissorun qəhrəmana canlı münasibəti, həm ümumi, həm də müxtəlif fərdi xüsusiyyətlərdə başa düşülür.

Yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, sənədli filmlər cəmiyyətdə baş verən dəyişiklikləri ümumi şəkildə əks etdirir. Bu sənət həyatın dialektikasını müəyyən şəkildə göstərən üsuldur. Bunun sayəsində izləyici özü barədə tapa biləcəyi həqiqətə sahiblənir və öz xülyasında bir kainat qurmağı bacarır. Sənədli filmlərin rejissorluğunu, dramaturgiya nəzəriyyəsini kinematoqrafiya tədqiqatı kimi öyrənmək daha məqsədəuyğun hesab edilir.

## Ədəbiyyat siyahısı:

1. Dadaşov, A.Ə. Ekran dramaturgiyası. Bakı: Maarif, 1999, 224 s.
2. Əmirli, Ə.M. Dram və ssenari yaradıcılığı. Bakı: ADMİU, 2019, 527 s.
3. Qafarova, G.Ə. Ssenari yaradıcılığı. I. Bakı: ADMİU, 2015, 144 s.
4. Yusifova, K.H. Sənədli filmlərdə gerçəkliyin əksi. Bakı: Afpoliqraf, 2019, 96 s.

5. Нечай, О.Ф, Ратников, Г.В. Основы киноискусства. Москва: Высшая школа, 1985, 368 с.

**Айсель Агаширин кызы**

**Рустамова Драматургическая линии и режиссерская классификация в документальном экранном производстве**

**Резюме:** В статье рассматриваются основные принципы драматургии, роль сюжета в линии развития, реальные атрибуты внутреннего мира героя. Четко разъяснены тема, идея, сюжет и композиционные элементы, которые считаются основными составляющими драматургии. Обсуждаются структура, положения и виды драматургической модели документального фильма. В документальных фильмах обсуждается режиссерская технология. Подробно разъясняются функция и виды синхронизации в развитии документального кино. В документальном фильме герой является главным героем и объясняются его характерные черты.

**Ключевые слова:** Драматургия, режиссерская технология, документальный фильм, синхронизация, образ, герой

**Aysel Aghashirin gizi**

**Rustamova Dramaturgy lıne and dırector classıfıcatıon ın a documentary screen work**

**Summary:** The main principles of dramaturgy, the role of the plot in the line of development, real attributes of the character's inner world are discussed in the article. The theme, idea, plot, and compositional elements, which are considered to be the main components of dramaturgy, have been clearly explained. The dramatist model structure, provisions, and types of the documentary film were discussed. In documentaries, the director's technology is discussed. The function and types of synchronization in the development of documentary cinema are explained in detail. In the documentary film, the hero is the main character and his characteristic features are explained.

**Key words:** Dramaturgy, director's technology, documentary film, synchronization, character, hero

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17. 10. 2023**